**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 30

**Bakı şəhəri** «21» aprel 2016-cı il

**"TOUR d' AZERBAİDJAN" beynəlxalq velosiped turunun tibbi təminatı barədə"**

2016-cı il may ayının 4-8-dək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş, Bakı və Sumqayıt şəhərləri, Abşeron, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Şəki rayonlarının ərazisindən keçməklə **"TOUR d' AZERBAİDJAN"** beynəlxalq velosiped yarışının iştirakçılarına və qonaqlara tibbi təminatını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova və Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi E. Əliyevaya tapşırılsın ki, yarışın keçiriləcəyi ərazilərdə təcili tibbi yardım xidmətinin növbətçiliyi təmin edilsin.

2. Respublika Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi M.Cəlalova tapşırılsın ki, bütün marşrutlar boyunca velosipedçiləri müşayiət edəcək 3 ədəd təcili tibbi yardım avtomobilinin (heyyəti ilə birlikdə) ayrılması təmin edilsin.

3. Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi E. Əliyevaya, Sumqayıt şəhər Səhiyyə İdarəsinin müdiri Ə. Tağıyevə, Abşeron, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz və Şəki rayonmərkəzi xəstəxanalarının baş həkimlərinə tapşırılsın ki, zəruriyyət yarandığı halda velosiped turun iştirakçılarına və qonaqlara tibbi yardımin göstərilməsi təmin edilsin.

4. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

Nazir Oqtay Şirəliyev